Azərbaycan-Qazaxıstan münasibətləri günün tələbləri səviyyəsində inkişaf edir

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana səfərə gəlir. Səfər çərçivəsində ticari-iqtisadi, nəqliyyat, logistika, mədəni-humanitar əməkdaşlığın genişləndirilməsi, həmçinin strateji tərəfdaşlığın inkişafı məsələləri müzakirə olunacaq. Eyni zamanda, iki ölkə arasında bir neçə sənədin imzalanması gözlənilir. Regional əməkdaşlıq, iki xalq arasında qardaşlıq münasibətlərinin yüksək səviyyəsi belə deməyə əsas verir ki, cənab Tokayevin Azərbaycana səfəri mövcud əlaqələrin inkişafını keyfiyyətcə yeni mərhələyə qaldıracaq.

Ümumiyyətlə, xalqlarımızın dostluq əlaqələrinin tarixi qədimdir. Müstəqilliyin bərpasından sonra da ölkələrimiz arasında münasibətlər həmişə isti və mehriban olub, xalqlarımız bir-birinə qarşılıqlı dəstək veriblər. Azərbaycanla Qazaxıstan arasında sıx əlaqələr müstəqillik əldə etdikdən sonra hər iki ölkənin bir-birinin müstəqilliyini tanıması və diplomatik əlaqələr qurması ilə başlayıb. Onların möhkəmləndirilməsində ilk addımı Qazaxıstana rəsmi səfərə gedən ulu öndər Heydər Əliyev atmışdı və bu, sonradan iki qardaş xalq arasında ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynamışdı. 30 ildir ki, Azərbaycan və Qazaxıstan xalqları təkcə dostluğu qoruyub saxlamayıb, həm də ikitərəfli münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəltməyə nail olublar. Bu prosesdə ümummilli lider Heydər Əliyevin və Qazaxıstanın keçmiş Prezidenti Nursultan Nazarbayevin böyük rolu var.

Azərbaycan ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il avqustun 27-də qurulub. 1993-cü ildən Bakıda Qazaxıstan səfirliyi, 2004-cü ilin mart ayından Nur-Sultan şəhərində Azərbaycan səfirliyi, 2008-ci ilin sentyabrından Azərbaycanın Aktau şəhərindəki Baş konsulluğu fəaliyyət göstərir. Ulu öndər Heydər Əliyevin Qazaxıstanın keçmiş Prezidenti Nursultan Nazarbayevlə ilk görüşlərindən biri 1994-cü il oktyabrın 19-da Türk Dövlətləri Başçılarının II Zirvə görüşü çərçivəsində baş tutmuşdu. Heydər Əliyev və Nursultan Nazarbayev ikitərəfli münasibətlərin inkişaf perspektivlərini müzakirə etmişdilər. Həmin görüşdə Azərbaycan-Qazaxıstan əməkdaşlığının həm türk dövlətləri arasında əlaqələr çərçivəsində, həm də ikitərəfli formatda qurulması qərara alınmışdı. Xüsusilə qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə hər iki ölkə bir sıra formatlarda uğurla əməkdaşlıq edib. Prezident İlham Əliyevin səyləri sayəsində bu əməkdaşlıq daha strateji və intensiv xarakter alıb.

Xatırladaq ki, Prezident İlham Əliyevin Qazaxıstana ilk rəsmi səfəri 2004-cü ilin martında baş tutmuşdu. Bu səfər zamanı prezidentlər İlham Əliyev və Nursultan Nazarbayev iqtisadi sahədə, xüsusilə Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına nəqli sahəsində əməkdaşlıq haqqında fikir mübadiləsi aparmışdılar. Hər iki dövlət başçısı neft-qaz sektorunda həyata keçirilən irimiqyaslı layihələrin, xüsusilə də Qazaxıstanın Bakı-Tbilisi-Ceyhan layihəsində iştirakının böyük əhəmiyyətini vurğulamışdı. Bu səfərdən sonra Azərbaycan ilə Qazaxıstan arasında əməkdaşlığın inkişafı yüksələn xətlə davam etmişdir. İkitərəfli müqavilə-hüquq bazasına əməkdaşlığın bütün sahələrini əhatə edən 121 sənəd daxildir.

2005-ci il mayın 24-də Qazaxıstanın keçmiş Prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi səfərə gəlmişdi. Həmin səfər çərçivəsində ölkələr arasında altı sənəd, o cümlədən ikitərəfli münasibətlərin məntiqi nəticəsi olaraq, Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik haqqında Saziş imzalanmışdı. 2006-cı il iyunun 6-da Prezident İlham Əliyevin Qazaxıstana səfəri çərçivəsində Qazaxıstandan Xəzər dənizi və Azərbaycan ərazisindən Bakı-Tbilisi-Ceyhan sistemi vasitəsilə beynəlxalq bazarlara neft nəqlinin asanlaşdırılması və dəstəklənməsi haqqında Saziş imzalanmışdı. Azərbaycan ilə Qazaxıstan arasında müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində həm ikitərəfli, həm də çoxtərəfli formatda əlaqələr qurulub, ölkələr müxtəlif təşkilatlarda, məsələn, BMT, MDB, İƏT, TDƏŞ, ATƏT və s. çərçivəsində qarşılıqlı fəaliyyət göstərirlər. Buna misal olaraq, Azərbaycanın 2012-2013-cü illərdə, Qazaxıstanın isə 2017-2018-ci illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində bir-birinə göstərdikləri dəstəyi qeyd etmək olar.

Bu gün Azərbaycan və Qazaxıstan regional inteqrasiya və təhlükəsizliyin arxitekturasını müəyyən edir, inkişaf paradiqmalarını uğurla tənzimləyir, qlobal inkişafa mümkün töhfələr verirlər. Qonşu dövlətlərlə davamlı dialoqun saxlanmasına, dost dövlətlərlə sosial-iqtisadi, mədəni-humanitar əlaqələrin harmonik inkişafına yönəlmiş xarici siyasət kursu özünü tam doğruldur, faydalı qarşılıqlı fəaliyyət üçün yeni platformalar yaradır. Hər iki ölkə regionda inteqrator kimi əsas funksiyalardan birini oynayır. Belə ki, ölkələrimizin ərazisindən çox aktual və mühüm dəmir yolu xətləri keçir. Bunlar Şimal-Cənub və Tbilisi-Qars kimi layihələrdir. Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP – bütün bunlar bir çox ölkələr üçün yeni imkanlar yaradan beynəlxalq miqyaslı güclü infrastrukturlardır. Azərbaycan və Qazaxıstan tranzit və nəqliyyat potensialının, logistikanın, o cümlədən Qafqaz marşrutunun müasirləşdirilməsi və inkişafı üçün böyük səylər göstərirlər. Hər iki ölkə Asiya-Avropa marşrutu üzrə yüklərin daşınmasında mühüm rol oynayır.

Bu gün Prezident İlham Əliyevin və Prezident Qasım-Jomart Tokayevin səyləri nəticəsində bu əlaqələr daha da dərinləşərək strateji əməkdaşlıq, tərəfdaşlıq və qardaşlıq səviyyəsinə yüksəlib. 44 günlük Vətən müharibəsi zamanı ərazilərimizi işğalçılardan azad etmək üçün apardığımız mübarizədə Qazaxıstanın rolunu, əhəmiyyətini və mövqeyini xüsusilə vurğulamaq lazımdır. Qazaxıstanın, eləcə də ölkəmizin çoxsaylı həqiqi dostlarının obyektiv və balanslı mövqeyi Qarabağ münaqişəsində ədalətin qalib gəlməsinə kömək etdi. Hazırda ölkələrimizin qarşılıqlı faydalı əməkdaşlıq və inkişaf üçün böyük potensialı var. Ən əsası, Azərbaycan ilə Qazaxıstan arasında münasibətlər təkcə regionumuzda sülh və sabitliyin deyil, həm də qarşılıqlı faydalı və səmərəli əməkdaşlığın nümunəsidir. Bu münasibətlərin bütün sahələrdə daha da inkişaf etməsi üçün tərəflərin siyasi iradəsi var. Din, dil və ortaq tariximiz də bunu tələb edir.

İki ölkə arasında sıx siyasi və iqtisadi dialoqla yanaşı, mədəni-humanitar, elm və təhsil sahələrində əməkdaşlıq dinamik şəkildə inkişaf edir. Ölkələrimiz arasında diplomatik münasibətlər qurulandan bəri mədəni əlaqələr yüksələn xətlə inkişaf edir. Aydındır ki, mədəni mübadilələr və qarşılıqlı əlaqələr iki xalqın qarşılıqlı anlaşmasında mühüm rol oynayır. Mədəni baxımdan bu, şübhəsiz ki, Qazaxıstan-Azərbaycan əlaqələrinin hərtərəfli inkişafına öz töhfəsini verir. Azərbaycanın Qazaxıstanda və Qazaxıstanın Azərbaycanda vaxtaşırı mədəniyyət günləri keçirilir, ölkənin mədəniyyət sahəsində nailiyyətləri nümayiş etdirilir.

Son 30 ildə bütün bu amillər bizi daha da yaxınlaşdırıb. Eyni soy köklərimiz, adət-ənənələrimiz – bütün bunlar xalqlarımız arasında daha da yaxınlaşmaq üçün yaxşı platforma, zəmin yaradıb. Qeyd etmək lazımdır ki, oxşar cəhətlərə baxmayaraq, yəni Azərbaycan və Qazaxıstan neft hasil edən ölkələr və əsas gəlir mənbəyi olmasına baxmayaraq, bu sahədə bir-birinə rəqib deillər. 30 il ərzində ölkələrimiz çoxmilyardlı transmilli layihələri, yəni bir dövlət üçün nəzərdə tutulmayan, regionun bir çox ölkələrinin maraqlarına cavab verən layihələri uğurla həyata keçirə biliblər. Azərbaycanın tərəfdaşları ilə həyata keçirdiyi yeni layihələr - avtomobil marşrutları, dəmir yolları, kommunikasiyaları dost və qardaş Qazaxıstan üçün də yeni imkanlar açır. Azərbaycan və Qazaxıstan arasındakı münasibətlər kontekstində desək, bu, şübhəsiz ki, çoxvektorlu əməkdaşlığa daha da yaxşı təkan verəcək əlavə faktordur. Bu kontekstdə Azərbaycan və Qazaxıstan təkcə mehriban qonşular deyil, həm də uzunmüddətli tərəfdaşlardır.

Hər iki ölkə qarşılıqlı sərmayə qoyuluşu baxımından geniş potensiala malikdir. Heç kimə sirr deyil ki, Qazaxıstan investorlar üçün çox cəlbedici ölkədir. Ona görə də Qazaxıstan təkcə azərbaycanlı investorlar üçün deyil, həm də dünyanın hər yerindən gələn investorlar üçün maraqlıdır. Bu baxımdan Qazaxıstan azərbaycanlı investorlar üçün də əlverişli ölkədir. Coğrafi yaxınlıq da bu məsələdə əməkdaşlığın inkişafına müsbət təsir edən amildir. Hər iki ölkəni Xəzər dənizi birləşdirir, gündəlik bərə daşımaları, həm yüklərin daşınması, həm də turistlərin və iş adamlarının səfərləri üçün yaxşı logistika yaradır. Qazaxıstanın geniş ərazisini və əlverişli investisiya mühitini nəzərə alan iş adamlarımız üçün qardaş ölkənin iqtisadiyyatının müxtəlif sahələrində daha geniş təmsil olunmaq imkanları var.

Azərbaycan Qazaxıstandan müasir texnikalar, teplovozlar, elektrovozlar alır. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Asiyadan Avropaya və Avropadan Asiyaya yük daşımalarına sərf olunan vaxtı xeyli azaldıb. Həm Qazaxıstan, həm də Azərbaycan bütün lazımi infrastrukturu yaradıblar - Xəzər dənizinin Qazaxıstan sahilində yeni müasir Kurık limanı, Bakı sahilində isə bütün zəruri müasir avadanlıqla təchiz edilmiş Ələt limanı təsis olunub. Aktauda Azərbaycan tərəfinin investisiyaları ilə tikilmiş İstehsal və Logistika Mərkəzi uğurla fəaliyyət göstərir. Bir sözlə, Azərbaycan və Qazaxıstan qarşılıqlı fəaliyyətin bütün sahələrində əməkdaşlığı daim artırır və bu əməkdaşlıq zamanın sınağından uğurla çıxırlar.

Beləliklə, hər ölkənin paytaxtından səsləndirilən bəyanatlar və real statistik rəqəmlər belə deməyə əsas verir ki, Azərbaycan və Qazaxıstan iqtisadiyyatın müxtəlif sahələrində ikitərəfli əməkdaşlığı dərinləşdirmək niyyətindədirlər. İkitərəfli münasibətlər sosial-iqtisadi, humanitar, siyasi və digər sahələrin bir çox sahələrini əhatə etməklə inkişaf edir. Belə bir şəraitdə daha çox qarşılıqlı faydalı layihələrin həyata keçirilməsi üçün addımlar atılır. Hər iki ölkə beynəlxalq gündəmdə olan bir sıra məsələlərdə eyni mövqedədir. Fakt budur ki, Azərbaycan və Qazaxıstan öz xarici siyasətində çoxvektorlu kurs seçiblər. Bundan başqa, Azərbaycandan keçən Qafqaz marşrutu Qazaxıstan üçün Avropa bazarlarına çıxış, Qazaxıstan isə Azərbaycan üçün müəyyən mənada Mərkəzi Asiya və Çin bazarlarına çıxış yoludur. Bu baxımdan qarşılıqlı faydalı əməkdaşlıq hər iki qardaş xalqın maraqlarına cavab verir.

Səbuhi MƏMMƏDOV,
"Xalq qəzeti"